# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# Ə M R İ

**Bakı şəhəri** **№13** **24 iyun 2020-ci il**

**Auditor xidmətinin keyfiyyətinə kənar nəzarətin təkmilləşdirilməsi ilə əlaqədar əlavə tədbirlər haqqında**

Ölkəmizdə həyata keçirilən şəffaflığın artırılması, kölgə iqtisadiyyatına qarşı və çirkli pulların yuyulması sahəsində mübarizədə auditin obyektiv və beynəlxalq standartların tələblərinə tam cavab verməklə aparılmasının mühüm əhəmiyyət kəsb etdiyini, bununla əlaqədar olaraq göstərilən auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi və keyfiyyətə kənar nəzarət sahəsində qabaqcıl xarici təcrübə nəzərə alınmaqla bu sahədə ictimai nəzarətin təmin edilməsi və yeni dövrün çağırışları Auditorlar Palatası sistemində keyfiyyətə nəzarət işinin təkmilləşdirilməsini labüd edir. Bunları nəzərə alaraq

**ƏMR EDİRƏM:**

1. Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarının və sərbəst auditorların apardıqları auditor xidmətinin keyfiyyətinin monitorinqi yalnız Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsi və onun müfəttişləri tərəfindən həyata keçirilsin.
2. Keyfiyyətə nəzarətin monitorinqinin ictimai nəzarətin təmin edilməsi ilə həyata keçiriləcəyini nəzərə alaraq, Palatanın strukturunda olan Keyfiyyətə nəzarət şöbəsi 2020-ci il 01 iyul tarixindən ləğv edilsin.
3. Keyfiyyətə nəzarət şöbəsinin müdiri Yaşar Adil oğlu Namazəliyev sədrin müşaviri vəzifəsinə təyin edilsin.
4. Palatanın icraçı direktoruna (S.Gülməmmədov) və Aparatın rəhbərinə (Q.Bayramov) tapşırılsın ki, üç gün müddətində ixtisar olunan Keyfiyyətə nəzarət şöbəsinin əməkdaşlarının Palatada müvafiq işlə təmin olunmalarına dair təqdimat versinlər.
5. Auditorlar Palatasının Şurası yanında Keyfiyyətə nəzarət komitəsinin Palatada əlaqələndiricisi və texniki dəstəyin göstərilməsi Palatanın əməkdaşı Rövşən Asif oğlu Cəfərliyə həvalə edilsin.
6. Hüquqi təminat idarəsinə (M.Abbasov) tapşırılsın ki, iki ay müddətində bu əmrə uyğun olaraq Palatanın təsdiq etdiyi normativ hüquqi sənədlərdə müvafiq əlavə və dəyişikliklərin aparılmasına dair təkliflərini təqdim etsin.
7. Maliyyə təminatı və xarici əlaqələr idarəsinə (V.Rəhimov) və Şəxsi heyət üzrə menecerə (İ.Məmmədova) tapşırılsın ki, bu sərəncamdan irəli gələn məsələləri həll etsinlər.
8. Bu əmrin mətninin Palatanın internet saytında yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**